WWW.KASPI.AZ 27 iyul 2019



# Tənzimat ədəbiyyatının yaranma səbəbləri və bədii-estetik dəyərləri

■ Elman Quliyev

*Əvvəli ötən sayda*

Sultan Əbdülhəmidin 1908-ci ildə elan etdiyi ikinci Məşrutəsi gözlənilən nəticəni verməmiş və az vaxtdan sonra Sultan Əbdülhəmid taxtdan endirilmişdir. Hakimiyyət davamçısı V Mehmedin idarəçiliyi nəticəsi olmayan bir sonluqla başa çatmışdır. Əsrin ilk illərində ölkədə baş verən dəyişikliklər ədəbi proseslərə də öz təsirini göstərmişdir. Bu illər ədəbi fəaliyyətin hərəkətsiz dövrləri hesab edilir. Lakin 1908-ci ilin qaynar hadisələrindən sonra ədəbiyyatda ilkin canlanmalar başladı. XX əsr Türkiyə türk ədəbiyyatının inkişafında, milli ədəbiyyat cərəyanı halına çevrilməsində ədəbi hərəkatların böyük rolu olmuşdur. “Fəcri-ati” Türkiyədə 1908-ci il Məşrutəsindən sonra yaranan ilk ədəbi təşkilatdır. Bu ədəbi təşkilat 1909-cu ildə 20-30 yaşlı gənc ədiblər tərəfindən yaradılmışdır. Emin Bülənd, Əhməd Haşım, Həmdullah Sübhi, Rafiq Xalid, Şəhabəddin Süleyman, Əli Süha, Fazil Əhməd, Fuad Köprülü, Yaqub Qədri və digər sənətkarların toplaşdığı “Fəcri-ati” ədəbi qurumu yeni fəaliyyət proqramı ilə meydana çıxdı. “Fəcri-ati"çilər “Sərvəti-fünun” məcmuəsinin 12 mart 1909-cu il tarixli sayında öz bəyannamələrini dərc etdirdilər. Həmin bəyannamə bu təşkilatın xüsusiyyətlərini əks etdirmək baxımından səciyyəvidir. Bəyannamədə ədəbiyyatın istər problemləri, istərsə də tədqiqi məsələlərinə münasibət bildirilmiş, ona geniş ictimai planda yanaşılmışdır. Dərc olunan bəyannamədə Namiq Kamalın “ədəbiyyatsız millət dilsiz insan kimidir” məşhur sözünə əsaslanmaqla yeni bir nəslin yeni bir düşüncə tərzinə sahib olması tələb kimi ortaya atıldı. Təşkilat üzvləri özlərinin ədəbiyyatsevər və əzmkar olduqlarını, Avropa sənətkarlarının bənzəri olmaq istədiklərini, “Qərbin nurlarını Şərqin üfüqlərinə nəql etmək arzularını” ifadə edir, fəaliyyətlərini bu istiqamətdə qurmağı vacib sayırdılar. Onlar bütün ölkədə mövcud olan eybəcərliklərin başlıca səbəbi kimi istibdadı əsas götürür və buna qarşı mübarizəni ön plana çəkirdilər. Hətta ədəbi həyatda baş vermiş sükut və geriliyin səbəbini də bunda axtarırdılar. Lakin “Fəcri-ati” hərəkatı “Sərvəti-funun"a bir çox baxımdan yaxın idi. Bir növ o, “Sərvəti-fünun"un “bətnində” formalaşan təşkilat idi. Ona görə də türk ədəbiyyatşünasları haqlı olaraq “Fəcri-ati"nin “Sərvəti-funun"un davamı olmaqdan savayı başqa bir şey olmadığını” göstərirdilər.

"Fəcri-ati"çilər böyük cəsarət və enerji ilə ortaya çıxıb sənətdə yeni dəyişikliklər etmək arzusunda olsalar da, tez bir zamanda dağılmış (1911) və fəaliyyətlərini dayandırmışlar.

1908-ci il Məşrutəsindən sonra (Milli ədəbiyyat (1908-1930) və Yeni ədəbiyyat (1930-cu ildən sonrakı dövrlər) mərhələlərində) Türkiyədə milli ədəbi prosesdə canlanma müşahidə edilirdi. Bu dövrdə sənətdə nüfuzu və yeri olan ayrı-ayrı şəxsiyyətlər qüvvətlənməkdə olan milli-ədəbi hərəkatlara rəhbərlik edir, türk milliyyətçiliyinin inkişaf etməsində mühüm rol oynayırdılar. Artıq 1908-ci ildən sonra yeni-yeni məcmuələr dərc edilir, milli təəssübü, elmi potensialı yüksək olan şəxslər bu məcmuələrin ətrafına toplaşırdılar. “Türk dərnəyi” ədəbi cəmiyyəti və bu cəmiyyətin orqanı olan eyni adlı məcmuə qarşısına birinci növbədə türk dilini sadələşdirmək və zəngin bir dil halına gətirmək məqsədi qoymuşdu. Türkiyədə yeni başlayan ədəbi hərəkatın qaynar formada getməsi yeni ədəbi cəmiyyət və təşkilatların yaranması ilə müşahidə olunurdu. 1911-ci ildə “Türk yurdu", 1912-ci ildə “Türk ocağı"nın yaranması formalaşmış türkçülük ideyalarının yeni inkişaf mərhələsinə qədəm qoyması və möhkəmləndirilməsindən xəbər verirdi. Yaranmış cəmiyyətlər türk dilini sadələşdirmək, onu yabançı sözlərdən, qeyri-milli qaydalardan təmizləmək və s. uğrunda geniş iş aparırdı. Baş verən proseslər onu deməyə tam əsas verirdi ki, sənətdə və mənəviyyatda milli həyəcan təbili çalınmaqda idi. Ömər Seyfəddin, Ziya Göyalp genişlənməkdə olan hərəkatın önündə gedirdilər. 1911-ci ildə “Gənc qələmlər” məcmuəsində yeni dil qaydalarının hakimliyi məsələsi ilə bağlı silsilə yazılar dərc olunmağa başladı.

İlk sanballı, problem səciyyəli məqalənin müəlliflərindən biri olan Ömər Seyfəddin ədəbiyyatda ərəb, fars və fransız sözlərinin işlədilməsinin əleyhinə çıxır, türk ədəbi dilini gəlmə sözlərlə dolduran sənətkarları tənqid edir və bu günkü tələbin mahiyyətinin nədən ibarət olmasını açıqlayırdı: “İndi yeni bir həyata, yeni bir intibah dövrünə girən türklərə yeni, təbii bir dil, yəni öz dilləri lazımdır. Milli bir ədəbiyyat vücuda gətirmək üçün əvvəla milli bir dil lazımdır. Əski dil xəstədir və bu xəstəliyin səbəbi də içindəki lüzumsuz və yabançı qaydalardır".

"Gənc qələmlər” məcmuəsi ətrafına toplaşan mütəfəkkir şəxsiyyətlər yeni fikirlər irəli sürərkən beş xüsusi maddə ilə (qəlibləşmiş bəzi tərkiblər istisna olmaqla (məs., sadrazam, sevk-i tabii, darb-i mesel) ərəb və fars tərkiblərinin dildən çıxarılması; türkcə cəm şəkilçilərindən başqa əcnəbi cəm şəkilçilərindən imtina (məs., mekatip-mektepler, memurin-memurlar); yazı dilində yalnız milliliyin və sadəliyin qorunub saxlanılması; ərəb-fars tərkiblərinin xalq danışıq dilinə uyğunlaşan variantlarından istifadə edilməsi (məs., şəms əvəzinə günəş, qəmər əvəzinə ay); danışıq dilinin İstanbul türkcəsi olması təklifi ilə çıxış edir, yazılı və şifahi dildə milliliyə xüsusi önəm verirdilər. Bütün bunlardan sonra ədəbiyyatda yeniləşmə başladı, Ömər Seyfəddin, Əli Cənib, Ziya Göyalp, Fuad Köprülü, Mehmed Akif və s. sənətkarlar sayəsində türk ədəbiyyatında milli ədəbi istiqamətlər genişləndi...